# Sənətə köklənən bilgilər

### *Bakı Xoreoqrafiya Akademiyası və burada yaradılan "İctimai fənlər" kafedrası barədə etüd-düşüncələr*

Bakı Xoreoqrafiya Akademiyası... Bu sənət ocağının adı qulaqlarımızda səslənərkən gözlərimiz önündə şahanə sənət mənzərəsi, incə duyumlu, zərif hərəkətli rəqslər, başlıcası isə, peşəkar ifaçılıq nailiyyətləri canlanır. Bütün bunlar böyük bir sənət məktəbinin qazandığı nailiyyətlərdir. Halbuki bu ali sənət məbədinin yaşı çox deyil. Onun yaradılmasından cəmi üç ilə yaxın vaxt keçir. Lakin bu qısa müddətdə bir çox sənət uğurlarına imza atılmış, ali səviyyədə peşəkar təhsilin təməl daşları qoyulmuşdur. Xatırladaq ki, respublikamızda xoreoqrafiya təhsilinin 90 ildən artıq şərəfli keçmişi vardır. Burada yetişən, burada çalışan korifey sənətkarlar nəinki Azərbaycanda, hətta bütün dünyada yaxşı tanınırlar. Lakin on illər boyu bu nailiyyətlər orta ixtisas məktəbi səviyyəsində gerçəkləşib. Buranı bitirən bir çox məzunlar ali təhsil almaq məqsədilə digər respublikalara, şəhərlərə üz tutublar. Elə bu səbəbdəndir ki, Bakı Xoreoqrafiya Akademiyasının yaradılması həmin sənət sahəsinin inkişafı üçün olduqca böyük əhəmiyyət kəsb edir.

Lakin sənət akademiyasının yaradılması işin yalnız başlanğıc hissəsidir. Onu idarə etmək, olduqca çətin, dərin peşəkarlığı ilə seçilən, məsuliyyət tələb edən sənət təhsilini müasir tələblər səviyyəsində qurmaq, inkişaf etdirmək heç də asan məsələ deyil. Bu məsuliyyətli işin öhdəsindən mədəniyyət və incəsənət təhsilini mükəmməl bilən, zəngin təşkilatçılıq, idarəçilik, rəhbərlik səriştəsinə malik olan nüfuzlu, qətiyyətli, güclü şəxsiyyət gələ bilərdi. Məhz buna görə də yeni yaradılmış sənət akademiyasına rəhbərliyin Əməkdar elm xadimi, elmlər doktoru, professor Timuçin Əfəndiyevə həvalə olunması cəmiyyətdə birmənalı olaraq razılıqla qarşılandı. Əlbəttə, bu, heç də təsadüfi deyildi. Timuçin müəllim respublikada ali xoreoqrafiya təhsilini hələ akademiyanın yaradılmasından çox illər öncə təşkil etmiş, onu qorumuş, inkişaf etdirmiş, Azərbaycanda bu işin təməlini qoymuşdur. Hələ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə rəhbərlik etdiyi zaman burada açdığı xoreoqrafiya ixtisası bu sahədə peşəkar ali təhsilin başlanğıcına çevrildi. Bunun nəticəsində Bakı Xoreoqrafiya Məktəbini bitirən gənclər peşə təhsillərini doğma respublikada davam etdirmək imkanı qazandılar. Gənc istedadlar sənət uğurları ilə yanaşı, bakalavr və magistr pillələrindəki təhsil uğurları ilə də diqqəti cəld etməyə başladılar. Onların qarşısında daha geniş perspektivlər açıldı. Ali təhsilli xoreoqraflar həm də yüksək statuslu elmi-pedaqoji fəaliyyət göstərmək imkanı əldə etdilər. Bütün bunlar professor Timuçin Əfəndiyevin ali xoreoqrafiya təhsili sahəsində böyük xidmətlərinin, bu sahədə uzun illər boyu formalaşmış idarəçilik təcrübəsinə malik olmasının bariz göstəricisidir. Həmin ardıcıl tədris və təşkilatçılıq prosesinin məntiqi davamı olaraq o, hazırda rektor kimi çalışdığı Bakı Xoreoqrafiya Akademiyasında peşəkar təhsilin daha geniş müstəvidə inkişaf etdirilməsi sahəsində inamla fəaliyyət göstərir, bu işdə öz xidmətlərini, bilik və bacarığını, təcrübəsini əsirgəmir.

Bakı Xoreoqrafiya Akademiyasının az müddətdə böyük sənət və təhsil nailiyyətləri qazanması faktdır. Əlbəttə, bu nailiyyətlərin əldə edilməsində düşünülmüş idarəçilik, rəhbərlik fəaliyyətinin, kollektivin öz işinə məsuliyyətlə yanaşmasının böyük əhəmiyyəti vardır. Hazırda Bakı Xoreoqrafiya Akademiyasının tərkibində fasiləsiz təhsil prinsipinə əsaslanan qurumlar fəaliyyət göstərir. Buraya ixtisasyönümlü tam orta məktəb, kollec və bilavasitə Akademiya daxildir. Akademiyada bakalavr və magistratura bölməsi fəaliyyət göstərir. Lakin bu da son hədd deyil. Artıq Bakı Xoreoqrafiya Akademiyasında yüksək elmi kadr hazırlığı prosesinə başlanılmışdır. Akademiya rəhbərliyinin zəngin iş təcrübəsi, geniş elmi potensialın olması nəzərə alınmaqla burada sənətşünaslığın müxtəlif ixtisaslarına aid doktorant hazırlığına start verilmişdir. Bu gün Akademiyada həm fəlsəfə, həm də elmlər doktoru səviyyəsində tədqiqat işləri aparılır. Bütün bunlar qısa müddət ərzində qazanılan böyük nailiyyətlərin əməli təzahürüdür.

Hazırda Bakı Xoreoqrafiya Akademiyasında bir neçə kafedra fəaliyyət göstərir. Bunlardan biri də barəsində daha ətraflı söz açmaq istədiyimiz "İctimai fənlər" kafedrasıdır.

Sözügedən kafedra 2015-ci ilin sentyabrında yaradılıb. Yarandığı ilk günlərdən kafedranın əsasnaməsi (pasportu) hazırlanıb. Əsasnamədə kafedranın bütün fəaliyyəti öz əksini tapmışdır. Kafedra öz fəaliyyətində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, Mədəniyyət və Turizm Nazirliyinin sərəncamlarını, Bakı Xoreoqrafiya Akademiyasının Elmi Şurasının qərarlarını, rəhbərliyin göstərişlərini əldə əsas tutur.

"İctimai fənlər" kafedrası bütün Akademiya miqyasında xüsusi çəkiyə, mövqeyə malikdir. Belə ki, burada ixtisas və ya profilindən asılı olmayaraq bütün tələbələrin öyrənməli olduğu fənlər tədris edilir. Müasir tələbələrin hərtərəfli dünyagörüşünə malik olmasının əhəmiyyətini nəzərə alsaq, ictimai elmlərin kadr hazırlığında nə qədər böyük rola malik olduğunu təsəvvür etmək çətin olmaz. 22 müəllimin çalışdığı kafedrada Azərbaycan tarixi, İnformatika, Psixologiya və ali məktəb pedaqogikası, həmçinin Mədəniyyət tarixi və nəzəriyyəsi, Dekorativ-tətbiqi sənət tarixi, İncəsənət əsərlərinin təhlili, Layihələrin idarə edilməsi, Mülki müdafiə və bir çox başqa fənlər tədris edilir. Kafedranın müəllimləri bakalavr və magistr pillələri ilə yanaşı, kollecdə də dərs aparırlar.

"İctimai fənlər" kafedrasına Əməkdar incəsənət xadimi, professor Maral Manafova rəhbərlik edir. Onun gərgin, məqsədyönlü əməyi sayəsində qısa müddətdə kafedrada xeyli iş görülmüşdür. Bunlardan daha mühüm olanı, şübhəsiz ki, ixtisas profilinə uyğun dərsliklərin, monoqrafiyaların hazırlanmasıdır. Etiraf etmək lazımdır ki, uzun illər boyu bu sahədə boşluqlar olmuş, Azərbaycan dilində vacib dərsliklərin çatışmazlığı hiss edilmişdir. Dünya balet tarixi, klassik rus və hətta Azərbaycan baleti sahəsində ana dilimizdə qələmə alınmış dərs vəsaitlərinə kəskin ehtiyac duyulurdu. Professor Maral Manafovanın səyi ilə kafedra yaradıldıqdan az sonra ana dilində dərs vəsaitlərinin hazırlanmasına başlanıldı. Bu işdə digər müəllimlərə örnək olan Maral xanım "Balet tarixi", "Azərbaycan balet teatrına tarixi nəzər", "Sehrli rəqs aləmi" kimi irihəcmli dərs vəsaitləri hazırlayaraq nəşrə təqdim etdi. Kafedranın digər müəllimləri də bu sahədə məqsədyönlü iş aparır, günün tələbləri ilə səsləşən, pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsinə xidmət edən kitablar, dərsliklər hazırlayırlar. Bakı Xoreoqrafiya Akademiyasının tədris işləri üzrə prorektoru, professor Sevda Sadıxbəyovanın ərsəyə gətirdiyi "1940-1960-cı illərdə Opera və Balet Teatrında teatr-dekorasiya sənətinin formalaşması" adlı dərslik də nəşr edilmək ərəfəsindədir. Əsərdə milli səhnəqrafiya sənətinin özəlliklərindən, Azərbaycanın tanınmış teatr rəssamlarının yaradıcılığından bəhs olunur. Dosent Çingiz Bağırovun hazırladığı "Memarlıq və incəsənət abidələri Azərbaycanda müasir turizmin inkişafı kontekstində" adlı dərs vəsaitinin müxtəlif ixtisaslara yiyələnən tələbələr üçün faydalı olacağı şübhə doğurmur.

Əlbəttə, irihəcmli kitab və monoqrafiyaların, dərsliklərin yazılması çox vacibdir. Bütün bunlar tədrisin keyfiyyətinin yüksəldilməsinə və deməli, daha hazırlıqlı mütəxəssis yetişdirilməsinə xidmət edir. Lakin gündəlik tədris prosesində proqramların, metodik vasitələrin yazılması da böyük önəm daşıyır. Akademiyanın yaradılması ilə yeni tədris proqramlarına olan tələb xeyli artmışdır. Bunu nəzərə alan kafedra müəllimləri müxtəlif fənlər üzrə proqramlar hazırlayırlar. Bu proqramların böyük hissəsi artıq işıq üzü görüb. Bir çoxu da nəşr olunmaq ərəfəsindədir.

Bəzən səhv olaraq elə düşünürlər ki, tədris proqramı hazırlamaq asan, yüngül bir işdir. Buna hətta səthi yanaşanlar da olur. Əslində isə düzgün qurulmuş, tədrisin əsas tələblərini tam olaraq nəzərə alan proqramın yazılması nəinki asan deyil, əksinə, çox çətin, həm də məsuliyyətli bir vəzifədir. Çünki tələbənin yaxşı mütəxəssis kimi yetişməsi proqramın məzmunundan, quruluşundan çox asılıdır. Əgər yaxşı mütəxəssis hazırlamaq tələb olunursa (şübhəsiz ki, tələb olunur), tədris proqramının mükəmməlliyi əsas şərtlərdən biri kimi qarşımızda dayanır. Həm də nəzərə almaq lazımdır ki, proqram illərlə tədris müəssisəsində, kafedrada saxlanılır, ondan neçə-neçə pedaqoqlar, xüsusən gənc müəllimlər tələbələrlə məşğul olarkən istifadə edir. Proqramda buraxılan kiçik bir xəta illər ərzində tədris prosesinin ahəngdarlığını pozur, bir yox, bir neçə nəsil tələbənin hazırlıq səviyyəsinə xələl gətirir. Bu xəta, yaxud nəyinsə nəzərdən qaçırılması hətta gənc pedaqoqları da çaşdıra bilər, fənnin qayəsi, strukturu, mövzu ardıcıllığı və tamlığı barədə onlarda yarımçıq, birtərəfli təsəvvür formalaşdırar.

*Qısa haşiyə:* hələ 1928-29-cu illərdə gözəl sənətkarımız, xalq artisti Mirzəağa Əliyev "Hacı Qara" filmində bu obrazı yaradarkən, çəkilişlər zamanı so dərəcə ehtiyatlı davranır, operator qarşısında ən kiçik hərəkətini belə ölçüb-biçirdi. O, bundan əvvəl dəfələrlə səhnədə Hacı Qara surətini canlandırmışdı. Bununla belə, görkəmli aktyor deyirdi ki, səhnə ilə kinonun məsuliyyəti bir deyil. Səhnədə buraxdığın səhv unudulub gedir, filmdə isə o, həmişəlik qalacaq. Bəlkə də bu müqayisə yersiz təsir bağışlaya bilər. Lakin məsələnin prinsipial mahiyyəti bundan ibarətdir ki, uzun müddət bizə xidmət edəcək istənilən yaradıcılıq nümunəsinin, nəşr işinin kamil olması vacibdir. Bu fikir tədris proqramı hazırlanmasına da şamil edilə bilər. Məhz buna görə də proqramın peşəkarlığı, qüsursuz olması əsas şərtlərdən sayılır. Yaxşı tərtib edilmiş proqram həm yüksək səviyyəli mütəxəssis hazırlanması, həm də gənc müəllimlərin təkmilləşməsi üçün bir növ mayak rolunu oynayır.

Fərəhli haldır ki, son ilyarım ərzində "İctimai fənlər" kafedrasında hazırlanaraq işıq üzü görmüş proqramlar fənlərin tələblərinə cavab verməklə onun spesifik xüsusiyyətlərini dolğun əks etdirirlər. Bu baxımdan kafedra müdiri, professor Maral Manafovanın qısa müddət ərzində tərtib etdiyi proqramlar diqqəti daha artıq cəlb edir. Onun professor L.Həsənova ilə birlikdə Azərbaycan və rus dillərində hazırladığı "Müasir xoreoqrafiya tarixi", magistratura pilləsi üçün professor S.Sadıxbəyova və dosent X.Zeynalovla həmmüəllifikdə tərtib etdiyi "Postmodernizm və müasir incəsənət", həmçinin bəzi digər proqramları bu qəbildəndir. Bakı Xoreoqrafiya Akademiyasının tədris işləri üzrə prorektoru, professor Sevda Sadıxbəyovanın Azərbaycan və rus dillərində yazdığı "Səhnəqrafiya tarixi" adlı proqram da dolğun məzmunu, peşəkar tərtibat xüsusiyyətləri ilə diqqət çəkir. Proqrama daxil edilmiş şəkillər onun məzmununun daha dərindən qavranılmasına yardım edir, mövzular barəsində vizual təsəvvür formalaşdırır və bununla da dərsin daha dərindən mənimsənilməsinə xidmət edirlər. Kollec pilləsi üçün professor M.Manafovanın və kafedranın müəllimi N.Məlikovanın birlikdə qələmə aldıqları "Teatr və balet tarixi" adlı proqram da yüksək, kamil səviyyəsi ilə seçilir. Adıçəkilən proqramlara respublikanın tanınmış alimləri, sevilib-seçilən sənətkarları rəy vermişlər.

Kafedranın müəllimləri təkcə proqram hazırlanması ilə kifayətlənmir. Onların əksəriyyəti ciddi elmi-tədqiqat və yaradıcılıq fəaliyyəti ilə məşğuldur. Əməkdaşlar həm Akademiyada, həm də digər elm və təhsil mərkəzlərində keçirilən beynəlxalq və respublika konfranslarında, seminar və "dəyirmi masa"larda müntəzəm iştirak edirlər. Müəllimlərin bir çoxunun elmi toplularda, dövri mətbuat səhifələrində, eləcə də elektron resurslarda məqalələri işıq üzü görmüşdür. Haşiyə çıxaraq qeyd edək ki, yeni yaradılmış ali təhsil müəssisəsində "Sənət akademiyası" adlı elmi əsərlər toplusu da nəşr olunur. Kafedranın müəllimləri öz yazıları ilə toplunun səhifələrində çıxış edirlər.

Ümumən Bakı Xoreoqrafiya Akademiyasında olduğu kimi, "İctimai fənlər" kafedrasında da qızğın pedaqoji və elmi-yaradıcılıq işləri gedir. Yeni yaradılmış sənət akademiyası təhsil prosesinin daha mükəmməl, müasirliyin tələblərinə daha dərindən cavab verən əsaslar üzərində qurulması tələblərini irəli sürmüşdür. Akademiyadakı digər kafedralar kimi, "İctimai fənlər" kafedrası da bu təxirəsalınmaz vəzifələrin öhdəsindən qüsursuz gəlməyə çalışır.

**Xəzər ZEYNALOV,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent.**